*UOT 159.9*

***Qəribə Vahid qızı Rəhimova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti dosenti,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0002-2231-3660*
https://doi.org/10.69682/azrt.2024.91(2).225-228

# ƏXLAQ TƏRBİYƏSİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİNİN KLASSİKLƏRİMİZİN (A.A. BAKIXANOV) YARADICILIĞINDA ƏKS OLUNMASI YOLLARI

***Гариба Вахид гызы Рагимова***
*доцент*
*Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по психологии*

# ПУТИ ОТРАЖЕНИЯ ПСИХОЛОГИЧЕСКИХ ОСОБЕННОСТЕЙ НРАВСТВЕННОГО ВОСПИТАНИЯ В ТВОРЧЕСТВЕ НАШИХ КЛАССИКОВ (А.А. БАКИХАНОВ)

***Gariba Vahid Rahimova***
*associate professor at*
*Azerbaijan State Pedagogical University, doctor of philosophy in psychology*

# THE WAYS OF PSYCHOLOGICAL CHARACTERISTICS OF MORAL EDUCATION ARE REFLECTED IN THE CREATION OF OUR CLASSICS (A.A. BAKIKHANOV)

**Xülasə**. Əxlaq dedikdə milli əxlaqımız göz önünə gəlir. Onlardan təlim - tərbiyə prosesində istifadə edilməsi yetişən gənc nəslin daxilən zənginləşməsi, Vətəni və xalqı üçün yararlı bir adam kimi yetişməsi üçün stimul yaranır. Əxlaqi normalardan pedaqoji qaydalara uyğun istifadə edildikdə uşaqların tərbiyəsində ikitərəfli uğur qazanmış oluruq. Belə ki, uşaqlarda ailənin, məktəbin, xalqın, ictimai - mühitin və dövlətin qəbul etmədiyi qeyri-əxlaqi sifətlər, normalar islah olunur, ikincisi isə ailəyə, məktəbə, dövlətə başucalığı gətirən əxlaqi keyfiyyətləri yeniyetmələrə təlqin olunmaq üçün zəmin yaratmış olur. Əxlaq normalarından dərsdənkənar tədbirlərdə, xüsusilə gecələrdə, görüşlərdə, disputlarda, şagird konfranslarında istifadə olunması şagirdlərdə ən zəruri əxlaqi sifətləri o cümlədən alicənablıq, mətanətlilik, dəyanətlilik, həlimlik, təmkinlik, dözümlülük, halallıq, səmimiyyətlilik, vüqarlılıq, həyalılıq, səxavətlilik, səliqəlilik, dəyanətlilik, humanistlik kimi keyfiyyətlər aşılayır. Klassiklərimizin pedaqoji irsindən, tərbiyəvi fikirlərindən düzgün istifadə olunması yeniyetmələrin öz asudə vaxtlarını səmərəli keçirmələrinə xüsusi şərait yaradır və məhz bu şəraitdə onlar öz nümunəvi davranış qaydalarına əməl etməyə alışır, əxlaqi sifətlər nümayiş etdirməyə çalışırlar. .
***Açar sözlər:*** *əxlaq, tərbiyə, klassik, hərəkət, davranış*

**Резюме.** Когда мы говорим «мораль», на ум приходит наша национальная мораль. Использование их в процессе обучения и воспитания создает стимул к внутреннему обогащению молодого поколения, к тому, чтобы оно стало полезным человеком для своей Родины и народа. При использовании моральных норм в соответствии с педагогическими правилами мы достигаем двустороннего успеха в воспитании детей. Таким образом, у детей корректируются неморальные признаки и нормы, которые не принимаются семьей, школой, народом, социальной средой и государством, а второе – моральное поведение, позорящее семью, школу и государство. Использование моральных норм во внеклассных мероприятиях, особенно на вечерах, собраниях, диспутах, студенческих конференциях, прививает учащимся прививает такие необходимые моральные качества как великодушие, упорство, настойчивость, сдержанность, толерантность, искренность, щедрость, скромность, аккуратность, настойчивость, гуманизм. Правильное использование педагогического наследия и воспитательных идей наших классиков создает особые условия для того, чтобы подростки эффективно проводили свободное время, и именно в этих условиях они стараются следовать образцовым правилам поведения и проявляют нравственные качества.
***Ключевые слова:*** *нравственность, воспитание, классический, движение, поведение*

**Summary**. When we say morality, our national morality comes to mind. The use of them in the process of training and upbringing creates an incentive for the internal enrichment of the young generation, for them to grow up as a useful person for their homeland and people. When moral norms are used in accordance with pedagogical rules, we achieve double success in the education of children. non-moral attributes, norms that are not accepted by the social environment and the state is corrected, and secondly, the moral qualities that bring honor to the family, school, and the state are created to be instilled in the teenagers. The use of moral standards in extracurricular events, especially at nights, meetings, disputes, student conferences, instills the most necessary moral qualities in students, including generosity, tenacity, perseverance, meekness, restraint, tolerance, halal, sincerity, generosity, modesty, generosity, neatness, perseverance, humanism. The correct use of the pedagogical heritage and educational ideas of our classics creates special conditions for teenagers to spend their free time effectively, and it is in these conditions that they get used to following their exemplary rules of behavior and try to demonstrate moral qualities.

***Key words:*** *morality, education, classical, movement, behavior*

Müasir şəraitdə insan amili, şəxsiyyət və onun mahiyyəti, onun sosial-psixoloji kökləri, təşəkkül tapıb formalaşması problemi xüsusi aktuallıq kəsb edir. Məhz buna görədir ki, istər ümumi psixologiyada, istərsə də sosial psixologiyada şəxsiyyət problemi konseptual hesab olunur. İstər xarici ölkələrdə (ABŞ-da, Almaniyada, İngiltərədə, Fransada, keçmiş SSRİ-də) və istərsə də Azərbaycanda bu sahədə xeyli tədqiqatlar aparılmış, maraqlı fikirlər irəli sürülmüşdür. Həmin ideyaların öyrənilməsi və ümumiləşdirilməsinin mühüm elmi əhəmiyyəti var. Klassik ədəbiyyatımız yalnız bədii təfəkkürün məhsulu hesab edilə bilməz. Azərbaycan ədəbiyyatı bədii və elmi təfəkkürün vəhdəti nəticəsində yaranaraq, dövrün sosial, fəlsəfi-psixoloji xüsusiyyətlərini özündə əks etdirir. Bu baxımdan klassik irsimiz psixologiyanın nəzəri, tarixi problemlərinin öyrənilməsində əvəzolunmaz mənbədir. Məhz buna görədir ki, illərdir poeziya və nəsr əsərləri psixoloqların tədqiqat obyektlərinə çevrilmişdir.

Müdrik sözlər, hakimanə fikirlər, ibrətamiz psixoloji aforizmlər, bədii yaradıcılığın, söz sənətinin gözəlliyi və yaraşığıdır. Onlar sönməyən, daim şöləlвnib ətrafa işıq saçan incilərdir. Bu söz sənətində insan psixologiyasına xas olan keyfiyyətlərin yüksək sənətkarlıqla əks etdirilməsi digər ədəbiyyatlarda olduğu kimi, Şərq ədəbiyyatında da geniş şəkildə öz əksini tapmışdır.

XIX-XX əsrlərdə də Azərbaycanda dünya şöhrətli mütəfəkkirlər yaşayıb yaratmışlar. Onların yaradıcılığındakı psixoloji fikirlər psixoloqlarımız tərəfindən öyrənilmiş və öyrənilməkdədir. Bu tədqiqatlar bir tərəfdən elmi psixologiyanın nəzəri-tarixi problemlərinin araşdırılmasına, digər tərəfdən təlim-tərbiyənin psixoloji məsələlərinin öyrənilməsinə xidmət etmişdir.

Abbasqulu ağa Bakıxanov (1794-1847) Azərbaycan xalqının dərin və hərtərəfli biliyə malik olan mütəfəkkirlərdən biridir. Onun tarix, fəlsəfə, etika, pedaqogika, psixologiyaya aid qiymətli fikirləri vardır ki, ondan bu gün də faydalanmaq olar.

Onun birinci elmi əsəri fars dilinin qrammatikasına aid yazdığı **"Qanuni-Qüdsi"**(təmiz, pak, əziz mənasında işlədilir) əsəridir. Fars dilinin qanunlarını öyrədən bu əsər müəllifin kiçik, lakin dərin məzmunlu girişindən, **"Hərflər", "Kəlmələr" və "Cümlə"** adları altında ayrı-ayrı üç fəsildən ibarətdir. Girişdə müasir dilçilik elminin tələbləri nöqteyi-nəzərindən çıxış edən alim bu əsərini yazarkən fars dilinin qanunlarını kitablardan deyil, canlı danışıq dilindən öyrənmişdir.

"Qanuni-Qüdsi" əsərindən sonra A. Bakıxanov coğrafiya və astronomiya elmləri ilə məşğul olur. Coğrafiya elminə aid onun iki əsəri var. Bunlardan biri **"Kəşfül-qəraib",** o birisi "**Ümumi coğrafiyadır**"dır. "Kəşfül-Qəraib"-Amerikanın kəşfinə dair olan bu əsəri Amerikanın kəşfi və Xristofor Kolumbun (1451-1506) başına gələn əhvalatlar, o zamankı Amerika ərazisində yaşayan qəbilələrin ənənə və mərasimlərindən, əxlaq normalarından, coğrafi və iqlim şəraitindən geniş bəhs edilir.

Yarımçıq qalan "Ümumi coğrafiya" əsəri haqqında müəllif Yer kürəsi əhalisinin siniflərini müəyyən etmək və hər bir ölkənin yaşayış tərzindən bəhs edir". **"Meraci-xəyal"** ("Xəyalın uçuşu**"), "Məclisi-firəng"** ("Firəng məclisi") Firəng məclisi" poemasında həyat təcrübəsi çox məhdud olan bir gənc zadəganın günlərini əyan

məclislərində, eyş-işrətlə keçirən, sərbəst, mənasız həyat sürən ərli gözəl bir xanıma aşiq olması, onun uğursuz məhəbbət macəraları, keçirdiyi hiss və həyəcanları, mənəvi iztirabları romantik üslubda əks olunub. Poemalarından aydın görünür ki, o, Avropa zadəgan təbəqələrində hökm sürən sevgi, ailə münasibətlərini, əxlaq normalarını bəyənməmişdir.

Lakin o, Avropa zadəgan təbəqələrinin məişətini və adət-ənənələrini təsvir edərkən **tünd satirik boyalara** müraciət etməmişdir. O, belə hesab edirdi ki, hər bir xalqın özünəməxsus həyat tərzi, adət-ənənələri, əxlaq normaları vardır və onlar həmin xalq üçün xoşdur, əzizdir. "Meraci-xəyal" "Xəyalın uçuşu" poemasında isə şair Rusiyanı səyahət edərək Lehistana (Polşaya) getməsindən və bir neçə ay Varşavada yaşayaraq şəhərin ağıllı, savadlı, mötəbər dövlət nümayəndələri və alimləri ilə tanış olmasından, yüksək zadəgan məclislərində iştirak etməsindən bəhs edir. Şair Varşavada maraqlı, mədəni bir mühitə düşməsinə baxmayaraq buradakı həyatından, taleyindən razı deyildir. Varşavada keçirdiyi bu daxili mənəvi təlatümü, ruhi sıxıntıları əsərdə maraqlı bir şəkildə əks etdirmişdir.

"Təhzibül-əxlaq" ("Əxlaqın təmizlənməsi")", digəri isə, "Kitabi-nəsihət ("Nəsihətnamə")dir. "Təhzibül-əxlaq" əsəri Bakıxanovun əsas *əxlaqi-fəlsəfi* əsəri hesab etmək olar. Bu əsərdə o, cəmiyyət haqqındakı fikirlərini bir sistem şəklində şərh edərək, gənclər arasında nəcib əxlaq normalarını, onun gözəl cəhətlərini təbliğ edir. Əsər müqəddimə və xülasədən başqa 12 fəsildən ibarətdir. Müqəddimədə kitabın yazılma səbəbləri və hikmət qanunları, xülasədə isə bilik əldə etməyin sirləri haqqında danışılır. Fəsillərin adlarından aydın olur ki, A.A. Bakıxanov bu əsəri yazarkən klassik Şərq ədəbiyyatında bu səpkidə yazılmış bir çox kitabları araşdırmışdır.

O, əsərdə bir *əxlaq müəllimi* kimi faydalı məsləhət və nəsihətləri ilə oxucunu düz yola dəvət edir, onu əməyə rəğbət, dostluğa sədaqət, böyüklərə hörmət, təvaze və ədalətə çağırır. İnsan qəlbini ləkələyən, onu cəmiyyət içərisində xar edən tənbəllik, riya, paxıllıq, nankorluq, yalançılıq kimi alçaq sifətlərdən çəkindirməyə çalışır və öz fikirlərini elmi surətdə, dərin fəlsəfi izah və sübutlarla möhkəmləndirir, bir çox məsələlərdə dünyəvi əxlaq cəbhəsində duraraq ümumbəşəri əxlaq normalarını təbliğ edir. Əsərdə yeri gəldikcə Şərqin *Sənai, Əttar, Rumi, Sədi, Hafiz* kimi məşhur şairlərinin şerlərindən istifadə edir və əxlaq gözəlliyi ifadə olunmuş bu şer parçaları ilə oxucunun qəlbinə daha çox təsir göstərməyə çalışır.

"Təhzibül-əxlaq" ("Əxlaqın təmizlənməsi")müəllifin pedaqogika və psixogiyaya aid elmi və nəzəri məsələləri əhatə edən fəlsəfi əsəridir. "Təhzibül-əxlaq" əsərinin əsas məqsədi gəncləri pis əməllərdən çəkindirmək, onlarda nəcib və gözəl əxlaqi normaları tərbiyələndirməkdir. Şəxsiyyətin bütövlüyü, vicdan təmizliyi, doğruluq, ədalət, mərdlik, yoxsul və məzlumlara hamilik, insanlarla yaxşı rəftar, dünya malına tamah salmamaq, şöhrətpərəstlikdən çəkinmək, təvazökarlıq, zəhməti sevmək, vətənə və xalqa məhəbbət və s. bu əsərin irəli sürdüyü əsas əxlaqi məsələlərdəndir.

"Təhzibül-əxlaq" əsərində müqəddimədən sonra gələn "Etidala riayət", "Yaxşı işlərin fəziləti", "Can sağlığının qazanılması", "Şöhrətin bəyanı" fəsilləri əxlaq nəzəriyyəsi onun insanlığa, vətənə və xalqa olan məhəbbəti, maarifi və demokratik dünyagörüşü ilə bağlıdır. O, bu nəzəriyyəsi ilə gənclərdə elə gözəl əxlaqi sifətlər tərbiyə etmək istəyir ki, onlar müasir cəmiyyətin faydalı və xeyirxah üzvləri olsunlar, onlardan xalqa zərər yetişməsin

Bu əsərdə A.A. Bakıxanov nəzəriyyə ilə təcrübənin qarşılıqlı əlaqə və münasibətini təyin etməyə çalışır. Elmlə əməlin bir-birindən asılı olduğunu izah edərkən, elmə üstünlük verir. Kainat və ilahiyyat məsələlərinin qısa fəlsəfi şərhindən ibarət olan "Xatimədə" (son qoymaq, tamamlamaq mənası verir) müəllif kainatın maddi bir varlıqdan ibarət olduğunu, əşya və maddənin haldan-hala keçərək dəyişməsini, varlıqda yoxluğun olmamasını təsdiq edir.

Burada A.A. Bakıxanovun qədim yunan materialist filosofları Demokrit və Empedoklun əsərləri ilə tanış olduğu aydın hiss olunmaqdadır. Lakin bu materialist dünyagörüşü onda müntəzəm və ardıcıl surətdə axıra qədər davam etmir, idealist dünyagörüşü ona qalib gəlir.

"Təhzibül-əxlaq"dan sonra Abbasqulu ağa Bakıxanovun ikinci pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə"dir. "Kitabi-nəsihət"də 102 nəsihət vardır. Əsər müəllifin kiçik müqəddiməsindən sonra dini nəsihətlərlə başlanır. Dini

nəsihətlərdən sonra dövlət başçısına, ata-anaya, böyüklərə itaət və ehtiramın vacibliyinə aid, daha sonra isə həyat və məişət məsələləri ilə əlaqədar olan əxlaqi nəsihətlər verilir. Əxlaqi nəsihətlərin əksəriyyəti "Təhzibül-əxlaq"dakı əxlaqi nəzəriyyə ilə sıx bağlıdır. "Kitabi-nəsihət"in girişində müəllifin əsərinin izlədiyi əsas məqsəddən danışarkən tərbiyə və təlimə dair yazılan kitabların uyğunsuzluğundan, çətin dildə yazılmasından şikayət edir.

Uşaqların əxlaqının yaxşılaşdıran və onlarda nəcib xasiyyətlərin yaranmasını təmin edən belə nəsihətlər bu gün də öz əhəmiyyətini itirməmişdir. Azərbaycan və Dağıstan xalqlarının tarixinə aid olan "Gülüstani-İrəm" A.A. Bakıxanovun ən böyük elmi əsəridir. Müəllif bu əsərini yazarkən bir neçə dəfə arxeoloji tədqiqat işləri aparmış, tarixi abidələrdən, köhnə binaların qalıqlarından, sikkələrdən, padşahların və xanların fərmanlarından, milli əfsanələrdən, dini kitablardan, "Avesta"dan, yaşlıların nağıl və rəvayətlərindən, səyyahların verdiyi xəbərlərdən, gürcü və ləzgi salnamələrindən, çoxlu şərq mənbələrindən, qədim yunan, Roma, Azərbaycan və rus alimlərinin əsərlərindən istifadə etmişdir. Müəllif yığcam, lakin dolğun məzmunlu bu müqəddimədə tarix elminə qısa bir tərif verir, onu cəmiyyət və xalq üçün ən faydalı elmlərdən sayır.

**Problemin aktuallığı**. Əxlaq tərbiyəsinin araşdırılması və onun klassiklərimizin yaradıcılığında psixoloji proseslər zəminində öyrənilməsi xüsusi aktuallıq kəsb edən məsələlərdəndir. Əxlaq uşağın kiçik yaşlarından başlayaraq istər ailədə iştər sosial cəmiyyətin təsirlərindən formalaşır. Daim inkişafda olan gənc nəslin əxlaqını, tərbiyəsini, psixoloji vəziyyətini araşdırmaq məsələləri hər dövr üçün öz aktuallığını qoruyur.

**Problemin elmi yeniliyi**. Əxlaq tərbiyəsi uşaq psixologiyasının çox mürəkkəb problemlərindən biridir. Elmi yenilik onunla bağlıdır ki, məqalədə onlar konkret olaraq Bakıxanovun əsərləri əsasında işıqlandırılır. Bu materiallar uşaqlarda əxlaq tərbiyəsi haqqında yeni fikirləri formalaşdırır, zənginləşdirir.

**Problemin təcrübi əhəmiyyəti.** Məqalədən gənclərin əxlaq tərbiyəsinin formalaşmasında, uşaq yaşlarından başlayaraq, hər şeydən əvvəl əxlaq gözəlliklərini uşaqlara öyrətmək məqsədilə, həmçinin ailənin, cəmiyyətin möhkəm əxlaqi təməllər üzərində qurulması üçün həyata keçirilən tədbirlərdə, mühazirə materiallarında istifadə edilə bilər.

## Ədəbiyyat:


1. Abdullayev A.K. Bakıxanovun emosiya və hisslər haqqında görüşləri / V.İ. Lenin adını daşıyan Sovet İttifaqı ali məktəbləri professor-müəllim heyətinin elmi-nəzəri konfransının tezisləri. −Bakı: 1967.
2. Abdullayev A.K. A.A. Bakıxanovun ruh haqqında görüşləri // V.İ. Lenin adına APİ-nin professor-müəllim heyəti və aspirantların 1968-69-cu illərdə elmi tədqiqat işinin yekunlarına həsr edilmiş elmi-nəzəri sessiyasının materialları. −Bakı: 1970.
3. Babayev A.M. Məktəblilərin milli tərbiyəsində milli dəyərlərdən istifadə // Azərbaycan məktəbi, −1967, № l, −s. 22-25.
4. Bayramov, Ə.S. Psixologiya. / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. −Bakı: Çinar-çap, −2002. −623 s
5. Bayramov Ə.S. Mənəvi əxlaqi tərbiyənin və dini psixologiyanın bəzi xüsusiyyətləri // Azərbaycan məktəbi, 1988. – s. 42-53.


**E-mail:** qariba648@mail.ru

**Redaksiyaya daxil olub:** 16.04.2024